**G.A.Quliyeva**
***magistrant, Bakı Avrasiya Universiteti***
**gunayquliyeva2904@gmail.com**

*Məqalə redaksiyaya daxil olub 14.04.2023*
*The article was received by editorial board on 14.04.2023*
*Статья принята к печати 14.04.2023*

# AZƏRBAYCANDA REGİONAL SİYASƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Məqalə Azərbaycanda regional siyasətin təkmilləşdirilməsi istiqamətlərinin elmi cəhətdən araşdırılmasına həsr olunmuşdur. Məqalədə ölkədaxili regionlardakı müasir vəziyyət şərh edilmiş və dövlətin həyata keçirdiyi regional siyasətin təkmilləşdirilməsinə dair təklif və tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *region, regional siyasət, regional inkişaf, regional planlaşdırma, regional inkişaf agentliyi.*

## GİRİŞ

Hər bir ölkədə milli iqtisadiyyatın rəqabətqaliyyətlilik səviyyəsi ölkədaxili regionların inkişafından bilavasitə aslıdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, milli iqtisadiyyatın formalaşması, ölkədə mükəmməl bazar iqtisadiyyatının təmin edilməsi digər amillərlə yanaşı ölkədəki iqtisadi rayonların inkişaf səviyyəsindən bilavasitə aslıdır. Regional inkişaf ölkənin müxtəlif regionlarında iqtisadi və sosial strukturun təkmilləşdirilməsinə, resursların səmərəli bölüşdürülməsinə, iqtisadi və sosial inteqrasiyanın təmin edilməsinə, regionlar arasında rifah səviyyəsinin yüksəldilməsinə imkan yaradır. Regional inkişafın ölkə iqtisadiyyatına faydalarını aşağıdakı kimi sıralamaq olar:

- ✓ iqtisadi fəaliyyət çərçivəsində ölkənin müxtəlif bölgələrindəki resurslardan istifadə; etməklə yüksək inkişaf tempini həyata keçirmək;
- ✓ ölkədə əhali-resurs balansının yaradılması;
- ✓ iqtisadi məkanın və urbanizasiyanın iqtisadi inkişaf üçün ən əlverişli şəkildə təşkili;
- ✓ regionlararası rifah səviyyəsi fərqlərinin aradan qaldırılması.

Məlum məsələdir ki, müasir şəraitdə ölkədaxili regionların inkişafı dövlətin bu sahədə həyata keçirdiyi regional siyasətdən bilavasitə aslıdır. Nəzərə alsaq ki, 2021-ci ildə respublikamızın ərazisində əsas fəaliyyət növlərindən məhsul buraxılışının 66,9 faizi Bakı şəhərinin payına düşmüşdür, bu vəziyyət respublikamızda reallaşdırılan regional siyasətin təkmilləşdirilməsini zəruri edir.

Məlum olduğu kimi, respublikamıız keçmiş SSRİ-nin tərkibində olduğu 70 il ərzində respublikadaxili regionların sosial-iqtisadi inkişafı arasında kəskin fərqlər mövcud olmuşdur. Hal-hazırda da respublikamızda ölkədaxili regionların sosial-iqtisadi inkişafı arasında ciddi fərqlər mövcuddur. Belə ki, 2021-ci ildə ümumilikdə ölkə ərazisində əsas sahələr üzrə məhsulun ümumi buraxılışında və sənaye məhsulunun istehsalının regional qurluşunda birtərəfliliklər vardır. Biz bunları aşağıda verilmiş diaqramın məlumatlarından da görə bilərik.

Statistik məlumatlardan göründüyü kimi 2021-ci ildə ümumilikdə ölkə ərazisində əsas fəaliyyət növlərindən 105305,9 milyon manatlıq məhsul buraxılışının 66,9 faizi Bakı şəhərinin, 3,6 faizi Naxçıvan Muxtar Respublikasının, 5,8 faizi Abşeron-Xızı iqtisadi rayonunun, 0,9 faizi Dağlıq Şirvan iqtisadi rayonunun, 2,2 faizi Gəncə-Daşkəsən iqtisadi rayonunun, 2,7 faizi Qarabağ iqtisadi rayonunun, 2,3 faizi Qazax-Tovuz iqtisadi rayonunun, 2,0 faizi Quba-Xaçmaz iqtisadi rayonunun, 1,9 faizi Lənkəran-Astara iqtisadi rayonunun, 2,3 faizi Mərkəzi Aran iqtisadi rayonunun, 1,9 faizi Mil-Muğan iqtisadi rayonunun, 1,7 faizi Şəki-Zaqatala iqtisadi rayonunun, 0,9 faizi Şərqi Zəngəzur iqtisadi rayonunun və 2,1 faizi isə Şirvan-Salyan iqtisadi rayonunun payına düşmüşdür (1). Bununla

yanaşı 2021-ci ildə ümumilikdə ölkə üzrə istehsal olunmuş 55229,1 milyon manatlıq sənaye məhsulunun 82 faizdən çox hissəsi Bakı şəhərinin payına düşmüşdür.

**Diaqram 1**




***Mənbə:*** *Diaqram ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Regionların inkişafına xarakterizə edən mühüm göstəricilərdən biri də regionlar üzrə iqtisadiyyatın əsas sahələrində məhsul buraxılışının adam başına düşən həcmi göstəricisidir. Respublikamızın regionlarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışında fərqlilik olduğu kimi bu göstəricinin adam başına düşən həcmində də regionlar üzrə ciddi fərqliliklər mövcuddur. Belə ki, 2021-ci ildə qeyd edilən göctəricinin regionlar arasında ən yüksək məbləği 30587,2 manat Bakı şəhərində qeydə alındığı halda, ən aşağı göstərici yəni, 2072,8 manat Lənkəran-Astara iqtisadi rayonunda qeydə alınmışdır. Digər regionlarda isə bu göstəricinin həcmi Bakı şəhəri ilə müqayisədə çox az olmuşdur (Diaqram 2).

**Diaqram 2**




***Mənbə:*** *Diaqram ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Müstəqillik əldə etdikdən sonra ölkədaxili regionları inkişaf etdirərək onlar arasındakı bu fərqləri azaltmaq üçün hökumət tərəfindən ciddi adımlar atılmışdır. Belə ki, 2004-cü ildən başlayaraq regional inkişafa nail olmaq üçün 4 dəfə (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri) regionların sosial-iqtisadi inkişafının dövlət proqramı təsdiq edilib və reallaşdırılmışdır.

Dünya ölkələrinin təcrübəsindən də məlumdur ki, ölkə daxili regionların tarazlı inkişafının təmin edilməsində dövlət tərəfindən həyata keçirilən regional siyasətin xüsusi rolu vardır. Regional siyasət dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Regional siyasət həm mərkəzi, həm də yerli hakimiyyət orqanları tərəfindən həyata keçirilən və məhsuldar qüvvələrin bölgüsünü tənzimləməyə yönəlmiş müxtəlif qanunvericilik, inzibati və iqtisadi tədbirlər kompleksini əhatə edir. Regional inkişaf siyasətinin alətləri müxtəlif inkişaf səviyyələrinə malik regionlar üçün fərqli ola bilər. Regional siyasətlərə tarixi inkişaf prosesində iqtisadi, sosial və siyasi şərait təsir edir. Bu istiqamətdə regional siyasətlərin məqsədlərinin həyata keçirilməsi vasitələri də dəyişir. 1960-cı illərdə regionlararası fərqlərin aradan qaldırılmasında regional-məkan planlaşdırılmasına xüsusi diqqət yetirilirdi. 1970-ci illərin sonlarından, xüsusən də 1980-ci illərdən başlayaraq, ümumilikdə həvəsləndirici tədbirlər, xüsusilə vergi güzəştləri, pul vəsaitləri maliyyə yardımları regional inkişaf siyasətinin ən mühüm alətlərinə çevrilmişdir. 1970-ci illərdəki iqtisadi böhran siyasətlərin davamlılığını təmin edən maliyyə imkanlarını daraltdı. Bu vəziyyət bu sahədə siyasətin yenidən müəyyənləşdirilməsinə səbəb olmuşdur. 1990-cı illərdə regional siyasətlər baxımından regional miqyasda istifadə edilən məkan-struktur yanaşmaların resursların bölüşdürülməsində və balanslaşdırılmış məkan inkişafında tarazlığı təmin etməkdənsə, struktur dəyişikliklərinə uyğunlaşmaq məqsədi daşıyan daha çevik və ahəngdar bir quruluşa meyl etdiyi görünür (5).

Müasir şəraitdə dövlətin təkmilləşdirilmiş regional siyasəti xüsusilə aşağıda qeyd edilən vəzifələrin həllinə xidmət etməlidir:

- ölkədə makroiqtisadi sabitliyinin təmin edilməsinə;
- regionların sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqliliklərin aradan qaldırılması;
- ölkədaxili regionlarda mövcud olan resursları təsərrüfat dövriyyəsinə cəlb etməyə və onlardan maksimum dərəcədə səmərəli istifadə etməyə;
- regionlarda infrastruktur sahələrinin (istehsal, sosial, bazar və institusional) yüksək inkişafına nail olunması;
- ölkə daxili regionlar arasında iqtisadi əlaqələrin formalaşmasına və inkişafına nail olunması;
- regionlarda sosial və iqtisadi problemlərin əlverişli formada həllinə nail olunmasına və s.

Sənaye İnqilabından sonrakı illərdə demək olar ki, hər bir ölkədə regional balanssızlıqlar baş verdi. Bu balanssızlıqlar inkişaf etməmiş və inkişaf etmiş ölkələr, eləcə də ölkələrin öz daxilindəki regionlar arasında fərqli ola bilər. Bu fərqlər çərçivəsində müxtəlif vasitələrlə fərqli nəticələr əldə etməyi hədəfləyən bir çox regional inkişaf siyasəti mövcuddur. Bu vasitələri aşağıdakı kimi sıralamaq olar:

- regional planlaşdırma,
- inkişaf üçün zəruri olan dövlət investisiyalarının reallaşdırılması,
- inzibati təşkilatın regional inkişaf problemlərinə uyğunlaşdırılması,
- həvəsləndirici tədbirləri.

Regional planlaşdırma, bir şəhərdən böyük, lakin ölkədən kiçik ərazilərdə iqtisadi fəaliyyətin ən uyğun paylanmasının təmin edilməsi, müvafiq urbanizasiya strukturunun yaradılması və zəruri yaşıl sahə ehtiyaclarının uzunmüddətli planlarla təmin edilməsi vəzifələrinin həyata keçirilməsini əhatə edən tədbirlərdir. Regional planları hazırlayarkən, bölgənin rasional tənzimlənməsinə və bu tənzimləmədən sonra lazımi tədbirlərin düzgün həyata keçirilməsinə imkan verir.

Regional planlaşdırmada qarşılaşdığımız əsas məqsədlər bunlardır:

- fiziki istehsalın artımı;
- məşğulluğun genişləndirilməsi;
- gəlir səviyyəsinin artırılması və gəlir bölgüsündə qeyri-bərabərliyin azaldılması;
- regionların infrastruktur, inkişaf, məskunlaşma və xidmətlər kimi problemlərinin vahid dam altında qiymətləndirilməsi.

Bu əsas məqsədlərin sayəsində sosial problemlərin müəyyən edilməsi və həlli, resursların inkişafı, aparıcı sektorların müəyyənləşdirilməsi, regionda və digər regionlarda həyata keçirilən layihələrin regiona təsiri kimi alt hədəflər də müəyyən edilə bilər.

Azərbaycanda dövlətin həyata keçirdiyi regional siyasət əsasən dövlət proqramlarının işlənib hazırlanması, xüsusən də həyata keçirilməsində tətbiq edilən üsul və vasitələr bir çox inkişaf etmiş ölkələrə nisbətən çox azdır. Hal-hazırda ölkəmizdə ölkədaxili regionların inkişafının dövlət tərəfindən tənzimlənməsi üçün əsasən dövlət büdcəsindən ayırmalar, regionların inkişafına yönəlik dövlət proqramından və ölkə prezdenti tərəfindən təsdiq edilmiş sərəncam və fərmanlardan istifadə edilir. Hesab edirik ki, ölkədə regional siyasətin təkmilləşdirilməsi məqsədi ilə bu sahədə dövlət proqramları ilə yanaşı xüsusi hüquqi sənədlər (qanunlar və qanunvericilik aktları) qəbul edilməlidir.

Onuda qeyd etmək lazımdır ki, respublikamızda regional siyasətin təkmilləşdirilməsi istiqamətlərindən ən başlıcası problemli regionlarımız üçün xüsusi inkişaf planlarının hazırlanmasıdır. Bu cür planlardan əsasən ölkədə regional inkişaf strategiyalarını hazırlayanda istifadə olunur. Bizim üçün qardaş ölkə olan Türkiyədə bu cür ərazi planlarından istifadə olunur. Planda ərzainin və ya regionun coğrafi durumu, iqtisadi potensialı və onun tərkibi, insan resursları, təbii imkanları diqqətə alınmaqla uzunmüddətli (əsasən 10 illik) inkişaf istiqamətləri dəqiq müəyyən edilir. Ərazi planı ərazinin xarakteristikası və onun inkişafına birbaşa təsir göstərən əsas məsələlərin təqdimatı ilə başlanır. Burda əsas məsələ dedikdə əsasən miqrasiyanın region səviyyəsində idarə edilməsi, regiondakı qurumların iş bacarığı, regionun ətraf mühiti və su mənbələri, bölgə daxilindəki inkişaf fərqləri, iri həcmli dövlət sərmayələri nəzərdə tutulur. Ərazinin inkişafı üçün vacib prioritetlər kimi əsasən insan və toplum inkişafı, istehsal və iqtisadiyyat, ətraf mühit və yaşayış, coğrafi məskunlaşma və inkişaf müəyyən edilir. Bu sənədin sonunda planın icrasını dəyərləndirmək üçün nəticə göstəriciləri verilir (2).

Regional siyasətin təkmilləşdirilməsinin vacib istiqamətlərindən biri regionlarda regional inkişafı təmin edən ixtisaslaşmış qrumların yaradılmasıdır. Bildiyimiz kimi hal-hazırda respublikamızda bu işləri Azərbaycan Respublikası İqtisadiyyat nazirliyi icra edir. Lakin bir çox ölkələrdə bu məsələ ilə məşğul olan xüsusi ixtisaslaşmış insititutlar yaradırlar. Məsələn, Türkiyyədə bu cür ixtisaslaşdırılmış qurumlardan biridə Regional İnkişaf Agentlikləridir (RİA). Regional İnkişaf Agentlikləri ölkənin müəyyən coğrafi regionu daxilində bütün özəl və dövlət şirkətləri, yerli hakimiyyət orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı təmin etməklə həmin regionun iqtisadi inkişafını hədəfləyən və qanunvericilik əsasında yaradılan strukturlardır (6). İnkişaf agentliklərinin yaradılmasının ilk illərində vəzifəsi xarici kapitalın gəlməsini təmin etmək və sənaye sahələrinə nəzarət etmək idi. Sonrakı illərdə yerli şirkətlərə infrastruktur xidmətləri göstərdilər.

Müxtəlif ölkələrdə yaradılmış Regional İnkişaf Agentliklərinin mövcudluğunun səbəbləri regional strategiyaların həyata keçirilməsi, yerli və regional sahibkarlığın dəstəklənməsi, infrastruktur xidmətlərinin təmin edilməsinə köməklik etmək, özəl sektorun yaxın gələcəyi üçün yerli-regional həllərin araşdırılması və regional tələblərə cavab verəcək yeni məhsul və xidmətlərin istehsalı üçün maliyyə zəmanətləri və həll yollarının axtarılması kimi ümumiləşdirilə bilər.

Regional İnkişaf Agentliklərinin ən bariz məqsədi konkret regionun iqtisadi inkişafını təmin etməkdir. Bu, həm də Regional İnkişaf Agentliklərinin iqtisadi məqsədini təşkil edir. Burada nəzərdə tutulan uzunmüddətli regional iqtisadi inkişaf üçün əlverişli şəraitin yaradılmasıdır. Regional cəlbediciliyin artırılması agentliklərin ekoloji məqsədini təşkil edərkən, rayonun sosial-mədəni dəyərlərinin inkişafını təmin etmək onun sosial məqsədini təşkil edir. Beləliklə, agentliklər katalizator rolunu oynayaraq sərvətin yaradılmasına daha çox diqqət yetirmək imkanı tapırlar.

Regional inkişaf fərqlərini aradan qaldırmaq məqsədi daşıyan Regional İnkişaf Agentliklərinin əsas məqsədi, ilk növbədə regionların potensialını və problemlərini nəzərə alaraq inkişaf etdirdikləri siyasətlərlə xidmət göstərməklə regionda iqtisadiyyatı canlandırmaq, regional investisiyaları artırmaq və inkişafda bölgə əhalisinin iştirakını təmin etməkdir.

Regional İnkişaf Agentliklərinin əsas funksiyası regionun strukturunu araşdırmaq, çatışmazlıqları aradan qaldırmağa çalışmaq, əməkdaşlığı inkişaf etdirmək, təhsil şəbəkəsini gücləndirmək və həm yerli, həm də beynəlxalq səviyyədə investisiya mühitini yaxşılaşdırmaqdır. Bundan əlavə, regionlararası əməkdaşlığı təmin etmək və regionlararası inkişaf boşluğunu minimuma endirməkdir.

Regional inkişaf agentlikləri bürokratik muxtariyyətlərinə, yaradılması məqsədlərinə və fəaliyyətlərinə görə təsnif edilə bilər. Avropa ölkələrində regional inkişaf agentlikləri adətən müstəqil təşkilat kimi meydana çıxır və öz siyasi tərəfdarlarından müəyyən məsafədə fəaliyyətlərini davam etdirirlər. Bu təşkilatların əksəriyyəti vahid siyasi dayaqdan asılı olduğundan, onların fəaliyyətinə hüquqi cəhətdən siyasi müdaxilə var. Təsisçilərinə görə, regional inkişaf agentlikləri dörd yerə bölünür (6):

- mərkəzi hökumətlər tərəfindən yaradılan Regional İnkişaf Agentlikləri: Onların məqsədlərinə çatmaq üçün tələb olunan resurslara çatmaq kimi üstünlüyü var.

- yerli idarələr tərəfindən yaradılan Regional İnkişaf Agentlikləri: Onlar yerli reallıqlara yaxındırlar, lakin bürokratik kanallara müraciət etmək səlahiyyətləri azdır.

- yerli və regional idarələr tərəfindən yaradılan Regional İnkişaf Agentlikləri: Onlar daha tez qərarlar qəbul edə bilirlər və siyasi münasibətdən daha az asılı olurlar.

- dövlət-özəl tərəfdaşlıqlarla yaradılmış Müstəqil Regional İnkişaf Agentlikləri: Onlar həm metodlar, həm də məqsədlər kimi ictimai və özəl baxışları birləşdirmək xüsusiyyətinə malikdirlər. Gələcək Regional İnkişaf Agentliklərinin bu tipli olacağı və digərlərindən daha səmərəli olacağı proqnozlaşdırılır.

Regional inkişaf agentlikləri fəaliyyətlərinə görə dörd yerə bölünür (7):

- Strateji Regional İnkişaf Agentlikləri; Ümumilikdə məlumat banklarının yaradılması, sosial-iqtisadi, ümumi və sektoral tədqiqatların aparılması, regionun milli və beynəlxalq müstəvidə dəstəklənməsi, KOM-lara dəstək və məlumatların verilməsi, mövcud sahibkarlıq potensialının üzə çıxarılması və s. kimi fəaliyyətləri həyata keçirir.

- Ümumi Əməliyyat Regional İnkişaf Agentlikləri; Onlar sektorlararası inkişaf layihələrinin yaradılması, dəstəklənməsi və idarə edilməsinin əsas məqsədi ilə yaradılmışdır. Onlar strateji regional inkişaf agentliklərinin funksiyalarını nəzərə alırlar.

- Sektoral Operativ Regional İnkişaf Agentlikləri: Onlar konkret sektoru, regionun konkret fəaliyyətini, bir yerin konkret layihələrini dəstəkləmək üçün yaradılır.

- xarici sərmayələri cəlb etmək üçün yaradılmış Regional İnkişaf Agentlikləri; Onlar müvafiq bölgəni iqtisadi cəhətdən inkişaf etdirmək üçün bölgənin tanıtımına diqqət yetirərək xarici investorları cəlb etməyə çalışırlar.

Regional inkişaf agentliklərinin strateji təşəbbüslərinə aşağıdakıları aid etmək olar:

- biznes sahələrinə maliyyə yardımı,
- iş və işlə bağlı fəaliyyətlər üçün iş sahələrinin təmin edilməsi,
- KOM-lara məsləhət, yardım və dəstək verilməsi,
- uzunmüddətli perspektivdə regionun inkişaf potensialının artırılması layihələri,
- sosial inkişaf.

Regional inkişaf agentliklərinin həyata keçirmə sahələri strateji istiqamətlərinə görə üç yerə bölünür:

- bölgəyə kənardan gələrək inkişafı mümkün edən mərkəzi hökumət siyasətini əvəz edən və ya tamamlayan ənənəvi tədbirlər,
- mərkəzi hökumətin siyasətləri çərçivəsində olmayan və ilk növbədə yerli şirkətlərdə böyümə və rəqabəti stimullaşdırmaq məqsədi daşıyan yeni tədbirlər,
- regional inkişaf agentlikləri dörd fəaliyyətə daha çox üstünlük verirlər:
- bölgəyə sərmayə qoymağı düşünən sahibkarı məlumatlandırmaq,
- bölgəyə və ya bölgədən texnologiya transferi ilə məşğul olmaq,
- bölgədə məskunlaşmış şirkətlərə bütün sahələrdə məsləhət xidmətlərinin göstərilməsi,
- yollar, su, kanalizasiya və zibillərin yığılması kimi infrastrukturun yaxşılaşdırılması fəaliyyətlərində fəal rol oynamaq.

Regional inkişaf agentlikləri öz regionlarına kapital cəlb etmək üçün xaricdə birbaşa və ya dolayısı ilə ixtisaslaşmış milli qurumlarla əməkdaşlıq etmək, məlumat kampaniyalarında, ticarət yarmarkalarında və sərgilərdə iştirak etmək kimi fəaliyyətlər həyata keçirirlər.

Fikirmizcə, ölkənin regional siyasəti hazırlanarkən ölkədəki yerli özünüidarəetmə orqanlarının ərazinin inkişafına təsir etmə səlahiyyətlərinin artırılması vacib məsələlərdəndir. Dünya

ölkələrinin təcrübəsi də göstərir ki, bələdiyyələr ərazinin sosial-iqtisadi inkişafında mühüm rol oynaya bilirlər. Məsələn, Gürcüstanda effektiv və regional inkişaf sahəsində xüsusi səlahiyyətlərə malik bələdiyyə sistemi fəaliyyət göstərir. Lakin, respublikamızda bu sahədə çox ciddi problemlər mövcuddur. Beləki, ölkə başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında nəzərdə tutulmasına rəğmən hələ də bələdiyyələrin ərazinin sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, bələdiyyələrin qərar qəbuletmədə rolunun gücləndirilməsi istiqamətində heç bir hüquqi addım atılmayıb. Respublikamızda bələdiyyələrin problemləri onların qeyd olunan istiqamətdəki səlahiyyətlərinin məhdud olmasında deyil, həmdə bələdiyyələrin maliyyə imkanları çox məhdudur. Hal-hazırda respublikamızdakı bələdiyyələrin böyük əksəriyyəti mərkəzi büdcədən aslıdırlar. Belə bir şəraitdə bələdiyyələr ərazinin inkişafında əsas aparıcı qüvvələrdən birinə çevrilməsi mümkünsüzdür.

Hesab edirik ki, respublikamızda regional siyasətin təkmilləşdirilməsinin digər bir əsas istiqaməti regionların inkişafına yönəlik fərqli stimul mexanizmlərindən və regional siyasət alətlərindən istifadə edilməsidir. Əvvala onu qeyd etmək lazımdır ki, bu cür siyasətin həyata keçirilməsi üçün ölkədaxili regionları inkişaf baxımından bir-birindən (problemli region) fərqləndirmək üçün meyarlar və prinsiplər hazırlanmalıdır. Çünki, bu cür regional siyasətdən problemli regionların inkişafında daha çox istifadə olunur. Qeyd edilən regional siyasətin xüsusiyyəti ondan ibarətdir ki, problemli regionlara münasibətdə fərqli investisiya, vergi və büdcə dəstəyi siyasəti işlənib hazırlanır.

**NƏTİCƏ**

Aparılmış araşdırmalardan belə qənaətə gəlmək olar ki, Azərbaycanda regional siyasətin təkmilləşdirilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlər görülməsi məqsədəuyğun olardı:

- "Problem rayonlar" üçün xüsusi inkişaf proqramlarının və inkişaf strategiyalarının hazırlanması və onun reallaşması. Regionların inkişaf üzrə milli strategiyada aşağıdakılar olmalıdır: regionlarının müqayisəli sosial-iqtisadi təhlili; müəyyən müddət ərzində əldə ediləcək inkişafın əsas və konkret məqsədləri və prioritetləri; strategiyanın məqsədlərinə nail olmaq üçün səlahiyyətli orqanların zəruri tədbirləri; strategiyanın müşahidəsi, qiymətləndirilməsi və yenilənməsi ilə bağlı zəruri tədbirlər.
- Regional siyasətin və əlaqələndirilmiş planlaşdırmanın hazırlanması prosesində lazımi məlumatları təmin etmək üçün Azərbaycan daha yaxşı regional informasiya sistemlərini tətbiq etməlidir. Regional inkişafın siyasi mexanizmini təkmilləşdirmək üçün ölkəmiz imkan daxilində daha yaxşı informasiyadan, yəni beynəlxalq müqayisəlilik standartlarına əsaslanan dəqiq, etibarlı məlumatlardan istifadə etməlidir. Bu, ölkəmizə yerlərdə ehtiyacları nəzərə almağa və regionlarda iqtisadi siyasətin konkret problemlərini həll etməyə çox kömək edər.
- Azərbaycanda vətəndaşların ehtiyaclarına daha çox uyğun gələn regional siyasətləri təşviq etmək üçün qeyri-mərkəzləşdirmə məsələsi daha aktualdır. Daha effektiv regional siyasətin qurulması siyasətçilər arasında daha çox koordinasiya və vətəndaş cəmiyyəti və özəl sektorun daha çox cəlb edilməsini tələb edir. Uğurlu regional inkişaf üçün özəl sektorun fəaliyyəti çox vacibdir. Ona görə də regional və yerli iqtisadi inkişaf siyasətinin müzakirəsində özəl sektorun iştirakı son dərəcə vacibdir. Regionlarda əlverişli biznes mühitinin yaradılması üçün özəl sektor cəlb edilməli və onun fikirləri nəzərə alınmalıdır. Bu, həm də korrupsiyaya qarşı mübarizə üçün vacib olan prosesin şəffaflığını artırır, investisiya prosesini təkmilləşdirir. Regional siyasətlərin hazırlanmasında müxtəlif maraqlı tərəflərin fəal iştirakı nəticəsində onların effektivliyi artacaq.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Azərbaycanın regionları. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı 2022.

**2.** Rövşən Ağayev."Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyasının "Bölgələrin tarazlı inkişafı" istiqaməti üzrə monitorinq hesabatı. Bakı 2016, 39 s. http://edf.az/uploads/documents/regional_inkishaf.pdf

**3.** Mahmudov M.M, Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi.Dərslik, "İqtisad Universiteti" nəşriyyatı. Bakı 2011, 307 s.

**4.** Musa Türkoğlu. Kalkınma ajanslarının bölgesel kalkınma açısından önemi: Baka örneği. Uluslararası Alanya İşletme Fakültesi Dergisi, Yıl:2015, C:7, S:3, s.183-198.

**5.** Seyit, Koçiberber, "Kalkınma Ajansları ve Sayıştay Denetimi", Sayıştay Dergisi, Sayı:61, s.37.

**6.** Can, E. Bölgesel Kalkınmada Kalkınma Ajanslarının Rolü. İzmir 2011. Altın Nokta Yayınevi.

**7.** Günaydın, D. Türkiye'de bölgelerarası gelişmişlik farklarının giderilmesinde kalkınma ajasnslarının yeri. İZKA Mali destek programları örneği. Dokuz Eylül Ünversitesi Sosyal Bilimler Enstitüsü Dergisi , 2013, 73-101.

**8.** OECD(2020), Меры региональной политики по содействию диверсификации и росту производительности в Казахстанев Беларуси, OECD Publishing, Paris, www.oecd.org/eurasia/competitiveness-programme/central-asia/Regional-Policies-to-Support-Diversification-and-Productivity-Growth-in-Kazakhstan-RUS.pdf.

**G.A.Guliyeva**
*master student, Baku Eurasian University*

**Directions for improvement of regional policy in Azerbaijan**

**Summary**

*The article is devoted to scientific research of directions for improving the regional policy in Azerbaijan. The article describes the current state of the regions within the country and provides suggestions and recommendations for improving the regional policy pursued by the state.*

***Key words**: region, regional policy, regional development, regional planning, regional development agency.*

**Г.А.Гулиева**
*магистрант, Бакинский Евразийский Университет*

**Направления совершенствования региональной политики в Азербайджане**

**Резюме**

*Статья посвящена научным исследованиям направлений совершенствования региональной политики в Азербайджане. В статье описывается современное состояние регионов внутри страны и даются предложения и рекомендации по совершенствованию региональной политики, проводимой государством.*

***Ключевые слова**: регион, региональная политика, региональное развитие, региональное планирование, агентство регионального развития.*